# Sosial-iqtisadi inkişafın Qəbələ nümunəsi

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

Bu il rayon üzrə 1352 nəfər ümumi orta təhsil kursu üzrə attestat almışdır. Onlardan 31 nəfərə fərqlənmə attestatı verilmişdir. 1277 nəfər isə tam orta təhsil kursu üzrə atestat almışdır. Onların da 3 nəfəri qızıl, 1 nəfəri gümüş medala layiq görülmüşdür. Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Mədinə Qasımova Beynəlxalq TEA proqramında iştirak edərək, 4 mərhələli proqramın qalibi olmuşdur. O, hazırda ABŞ-ın Şimali Karolina Ştatının Apalaki Universitetində təlim kurslarında iştirak edir.

Rayonumuzda 23 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müddət ərzində uşaq bağçalarında mövcud maddi texniki vəziyyətin yaxşılaşdırılması məqsədilə 2017-ci ilin yerli büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq 10240 manatlıq yumşaq, 10242 manatlıq bərk inventar, 3963 manatlıq avadanlıqlar alınaraq uşaq bağçalarına verilmişdir.

Qəbələ rayonunun mədəni-maarif müəssisələri tərəfindən 2017-ci ilin 9 ayı ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Qəbələ IX Beynəlxalq Musiqi Festivalı keçirilmişdir.

Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycanın Milli Kulinariya Mərkəzinin yaxından köməkliyi ilə V Qəbələ Beynəlxalq Mürəbbə Festivalı təşkil olunmuşdur. Festivalda dünyanın 22 ölkəsinin, həmçinin respublikanın 44 şəhər və rayonunun şirniyyatçıları iştirak etmişlər.

SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının və Koreya Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə Qəbələdə keçirilmiş "Ariranq"- "Azərbaycanın qəlbini coşdur" adlı mədəniyyət festivalının iştirakçıları rayonumuzun tarix-mədəniyyət abidələri, müasir infrasturukturu və turizm potensialı ilə yaxından tanış olmuş, yerli sənətkarların əl işindən təşkil edilmiş sərgiyə baxmış və özfəaliyyət kollektivlərinin çıxışlarını izləmişlər.

**Hörmətli yığıcaq iştirakçıları!**

Qəbələdə 19 turizm istirahət müəssisəsi fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Qəbələdə yerləşən mehmanxana tipli obyektlərdə bir gündə 2500-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Son 9 ayda rayonumuza 218118 nəfərə yaxın turist gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən mart ayında keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində ölkənin digər bölgələrindən olan məktəblilər Qəbələyə səfər etmişlər. Həmin günlərdə Qəbələ məktəbliləri də aksiyaya qoşularaq, Gəncə-Şəmkir-Göygöl rayonları ilə tanış olmuşlar.

2017-ci ilin 9 ayında Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, hesabat dövrü ərzində İran İslam Respublikasının Qərbi Azərbaycan vilayəti valisinin, Koreya Respublikasının Qyonqcu şəhər merinin, Moldova xarici işlər naziri müavininin, Polşa Respublikasının Qnezno şəhər merinin birinci müavininin başçılıq etdiyi nümayəndə heyətləri, həmçinin Avstriyanın və İsrailin Azərbaycandakı səfirləri, Kolumbiya Respublikasının xarici işlər naziri, ABŞ-ın Harvard Universitetinin müəllim və tələbə kollektivlərinin nümayəndələri, MDB-yə üzv dövlətlərin Gömrük Xidməti orqanlarının rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri başçıları, Rusiya Federasiyası Ədliyyə Nazirliyinin əməkdaşları, Monteneqronun Ali Məhkəməsinin sədri, III Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin iştirakçıları rayonumuza səfər etmişlər.

Qonaqlara Qəbələnin tarixi, mədəni həyatı, burada həyata keçirilən beynəlxalq tədbirlər, idman yarışları dövlət başçılarının zirvə toplantıları, eləcə də bütün istiqamətlərdə əldə edilən uğurlar barədə məlumatlar verilmiş, rayonun aqrar sektoru, yeni yaradılmış emal müəssisələri, infrastukturu ilə tanış edilmişlər.

Müvafiq qaydada Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı olaraq mənim də rəhbərlik etdiyim nümayəndə heyətləri Belarus Respublikasının Qrodno şəhərinə, Rusiya Federasiyasının Stavropol diyarına dəvət olunmuş, orada keçirilən ölkələrarası və regionlararası forumlarda iştirak etmişlər. Forumlarda şəhər və vilayət rəhbərləri ilə müzakirələr aparılaraq, dostluq və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair sənədlər imzalanmışdır.

Eləcə də rayon icra hakimiyyəti başçısının birinci müavininin rəhbərliyilə rayonumuzun 13 yaşlı futbolçularının da daxil olduğu nümayəndə heyəti Koreya Respublikasının dost Qyonqçu şəhərində olub.

Regionlararası əlaqələrin qurulması, iqtisadiyyat, mədəniyyət və turizm işi sahəsində ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilən layihələr bundan sonra da ardıcıllıqla, sistemli qaydada inkişaf etdiriləcəkdir.

**Hörmətli toplantı iştirakçıları!**

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2017-ci ilin 9 ayı ərzində stasionar xəstələrin sayı 1981 nəfər, cərrahi əməliyyatların sayı 157 olmuşdur.

Bu müddət ərzində ambulator müraciət edən xəstələrin sayı 134036 nəfər təşkil etmişdir.

Zərifə Əliyeva adına respublika Göz Xəstəlikləri İnstitutunun əməkdaşları rayonumuzda olmuş, 22-dən artıq xəstəni müayinə edərək, 14 nəfər göz xəstəsini əməliyyat etmişlər.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan 6800 nəfər obliqat qrupdan 2017-ci ilin III rübü ərzində 2213 nəfər müayinəyə cəlb edilib. Onlardan 1114 nəfər təhsil, 334 nəfər səhiyyə işçiləri, 765 nəfər isə digər sahələrdə çalışanlardır.

Ölkə Prezidentinin tapşırığı əsasında Respublikada, o cümlədən Qəbələdə 18 yaşından yuxarı olan əhali fevralın 15-dən mayın 15-dək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinədən keçirilmişdir.

Müayinələrin nəticəsinə əsasən 1821 nəfərə ambulator müalicə təyin edilmiş, 388 nəfər stasionar müalicəyə cəlb olunmuş, 235 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Bu müddət ərzində Qəbələ Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 17301, endoskopiya kabinetində müayinələrin sayı 1300, EKQ müayinələrinin sayı 3105, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 468, stasionar şöbəyə daxil olan xəstələrin sayı 911 nəfər olmuşdur. Aparılmış cərrahiyyə əməliyyatlarının sayı 843, hemodializ şöbəsində hemodializ seanslarının sayı 5170 aparılmış, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 10506, kompüter tomoqrafik müayinələrin sayı 1026, rentgen müayinələrin sayı 16970, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 4735 olmuşdur.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması məqsədi ilə kompleks tədbirlər həyata keçirilmişdir.

Rayon gənclər və idman idarəsi tərəfindən 2017-ci ilin 9 ayı ərzində 53 tədbir həyata keçirilmişdir. Bunlardan 29 tədbir gənclərlə iş sahəsini, 24 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Həyata keçirilən tədbirlərin mahiyyət baxımından əhəmiyyəti dövlət siyasətinin düzgün təbliğinin təşkili, hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, dərəcəli idmançıların hazırlanması olmuşdur.

Rayonda 2017-cı ilin 9 ayı ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarışlar keçirilmişdir. Bunlardan ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2017" Beynəlxalq velosiped turniri, "Şahin" hərbi idman oyununun zona mərhələsini, güllə atıcılığı üzrə kişilər və qadınlar arasında zona yarışını, yeniyetmələr arasında cüdo və taekvondo idman növləri üzrə Qəbələ Açıq Turnirini, güllə atıcılığı üzrə 45 ölkədən 700-dək idmançının iştirak etdiyi Dünya Kubokunu, "Gənc xilasedici" V Beynəlxalq yarışını və "Gənc xilasedici və yanğınsöndürən" VI Ümumrespublika birinciliyinin final mərhələsini, 300 nəfərin iştirakı ilə "Wonderland 2017-Azərbaycan" Beynəlxalq Skaut Düşərgəsini, 132 ölkədən seçilmiş 320 nəfər nümayəndənin iştirakı ilə keçirilən XIII Dünya Skaut Gənclər Forumunu və s. göstərmək olar.

Qəbələ Olimpiya İdman Kompleksində 2017-ci ilin 9 ayı ərzində idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və s. fəaliyyət istiqamətləri üzrə öz işini təşkil etmişdir.

Hesabat dövrü ərzində kompleksin xidmətlərindən 1638 nəfər-gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 866 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayından 389 nəfəri ödənişli əsasla, 477 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini 141 nəfər məzun bitirmişdir. Onlardan 20 nəfəri ümumi orta təhsil bazasından, 121 nəfəri isə tam orta təhsil bazasındandır.

Tikintisi yeni başa çatan Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində pilot layihə olaraq, 3 yeni ixtisas-aqroservis, bitkiçilik və heyvandarlıq mütəxəssisi ixtisasları üzrə şagird qəbulu aparılmışdır. Tədrisin müasir tələblər baxımından təşkli edilməsi üçün beynəlxalq təşkilatların nümayəndələri dəfələrlə rayonumuzda olmuş, məktəbin müəllim və istehsalat təlimi ustaları üçün təlimlər keçirilmişdir. Həmin ixtisaslar üzrə şagirdlər yeni dərsliklərlə təmin olunmuşlar. Tədris Azərbaycan Dövlət Aqrar Universitetinin təlimçi müəllimləri tərəfindən aparılmışdır.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin fəaliyyət imkanlarından regiondakı Milli QHT-lər faydalanmışlar. Mərkəzlə 2017-ci ilin 9 ayı ərzində 68 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət göstərən layihələr həyata keçirmişlər.

Rayon uşaq və ailələrə dəstək mərkəzi tərəfindən ilin ötən dövrü ərzində 41 ailəyə səfərlər edilmiş, 16 maarifləndirici tədbir və təlimlər keçirilmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarına böyük stimul vermişdir. Bunun nəticəsidir ki, rayonumuzun kənd təsərrüfatı sahəsində əhəmiyyətli dəyişikliklər hiss edilir.

Həmin Sərəncamın rayonda icrası ilə əlaqədar olaraq cari ildə 5969 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına 15442 hektar əkin sahəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına 1186490 manat yardım hesablanmışdır. Həmin vəsait yaxın vaxtlarda plastik kart vasitəsi ilə məhsul istehsalçılarına çatdırılacaqdır. Bundan əlavə güzəştli qaydalarla 612 nəfərə 2100 ton gübrə, 435 nəfərə isə 5019 litr pestisid verilmişdir.

2017-ci ilin məhsulu üçün 2016-ci ilin payızında rayonda 21047 hektar sahədə payızlıq dənli və 2017-ci ilin yazında 101 hektar yazlıq buğda olmaqla cəmi 21148 hektar sahədə taxıl əkilmişdir ki, onun da 16363 hektarını buğda, 4785 hektarını isə arpa sahələri təşkil etmişdir. Taxıl sahələri biçilmiş və 67917 ton məhsul istehsal olunmuşdur. Hər hektardan məhsuldarlıq 32,1 sentner təşkil etmişdir.

Kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən cari ildə 12260 ton kartof, 7601 ton tərəvəz, 1803 ton qarğıdalı, 116 ton bostan məhsulları istehsal olunmuşdur.

Hazırda rayonda 6854 hektar meyvə bağları, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həmin bağlardan bu il 13697 ton meyvə, 1906 ton üzüm yığılmışdır. İqtisadi səmərəliliyi nəzərə alınaraq meyvə və üzüm bağlarının genişlənməsi nəzərdə tutulur.

(Ardı 6-cı səhifədə).